

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (21.804)

1 avqust 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnardı qəbul edib.

ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnard artıq bir neçə gündür Azərbaycana gəldiyini, Bakı və regionlarımız ilə tanış olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, ABŞ-dan Azərbaycana daha çox səfərlərin həyata keçirilməsi insanlar arasında təmasların genişləndirilməsi və xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmlidir. Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin və eləcə də ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları ilə əməkdaşlığının çox yaxşı səviyyədə olduğunu deyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Burkina Faso dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amadou Dikonun etimadnaməsini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 31 iyul tarixli Sərəncamı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının da kino işçisi vardır.

**Əsgərov Müzəffər Rza oğlu**

Əməkdar mədəniyyət işçisi fəxri adı ilə təltif edilmişdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin İqdır Vilayətinin valisi ilə görüşüb



İyulun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası İqdır Vilayətinin yeni valisi Ənvər Ünlü ilə görüşüb.

Qonağı salamlayan Ali Məclisin Sədri onu İqdır vilayətinə vali təyin olunması münasibətilə təbrik etdi. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin tarixi inkişaf yoluna nəzər saldı, Naxçıvanın və İqdırın ölkələrimiz üçün əhəmiyyətini vurğuladı. Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı və mövcud inkişafı haqqında məlumat verən Ali Məclisin Sədri iqtisadi-ticarət, elm, təhsil, səhiyyə, ordu quruculuğu və turizm sahəsindəki ikitərəfli əlaqələrdən danışdı, azad ticarətin təşkilinin münasibətlərin inkişafına töhfə verəcəyini bildirdi.

İqdır Vilayətinin valisi Ənvər Ünlü Naxçıvanda olmaqdan məmnunluğunu bildirdi və göstərilən xoş münasibətə görə minnətdarlıq etdi. Ölkələrimiz arasındakı münasibətlərin əməkdaşlığın genişləndirilməsi üçün hərtərəfli əsas yaratdığını vurğulayan vali fəaliyyəti dövründə Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələrin inkişafına çalışacağını bildirdi.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev və Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Ərşən görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin iyul ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 6 iyul tarixli 66 nömrəli qərarı ilə Naxçıvan Muxtar Respublikasında elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləği müəyyən edilmişdir. Müvafiq qərara görə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, habelə muxtar respublikanın digər dövlət orqanlarının elmi, elmi-tədqiqat müəssisə və təşkilatlarında çalışan elmlər doktoru elmi dərəcəsi olan şəxslərə 50 manat (bilavasitə ixtisası üzrə çalışanlara 100 manat), fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi olan şəxslərə 30 manat (bilavasitə ixtisası üzrə çalışanlara 60 manat), dövlət büdcəsindən maliyyələşdirilən digər müəssisə və təşkilatlarda (icra hakimiyyəti orqanlarından başqa) bilavasitə ixtisası üzrə çalışan elmlər doktoru elmi dərəcəsi olan şəxslərə 80 manat, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslərə 40 manat məbləğində vəzifə maaşına əlavə müəyyən edilmişdir. Elmi dərəcəyə və elmi adlara görə müəyyən edilən əlavələr işçi tam ştat üzrə işlədikdə 100 faiz, yarımştat üzrə işlədikdə isə nəzərdə tutulan məbləğin 50 faizi həcmində ödənilir.

Nazirlər Kabinetinin 2017-ci il 6 iyul tarixli 67 nömrəli qərarı ilə "Vergi ödəyicisinin siyahıya alınmış əmlakının Naxçıvan Muxtar Respublikasının ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili Qaydaları" təsdiq edilmişdir. Qaydalara əsasən vergi ödəyicisinin siyahıya alınmış daşınmaz əmlakının, qiymətli kağızlarının və mədəni irs nümunələrinin ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışı həyata keçirilə bilməz.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müşavirə keçirilib

***Müşavirəni Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov açaraq bu ilin birinci yarısında görülən işlərə dair məruzə edib.***

Məruzədə qeyd olunub ki, bu ilin birinci yarısında vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında ölkə başçısının müvafiq sərəncamları əsasında çağırış kampaniyaları təşkil edilib. Bu kampaniyaların keçirilməsi istiqamətində nəzərdə tutulan plan tapşırıqlar Dövlət Xidməti tərəfindən yüksək səviyyədə yerinə yetirilib. 2017-ci ilin birinci yarısında 2001-ci ildə anadan olmuş vətəndaşların 2296 nəfəri artıq ilkin hərbi qeydiyyata alınıb.



Son illərdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin də inkişafına hərtərəfli şərait yaradıb, maddi-texniki təminat gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi onu da bildirib ki, 2017-ci ilin birinci yarımilində qarşıda duran digər vəzifə çağırışaqədər gənclərin seçilərək texniki peşə və sürücülük məktəbinə göndərilməsindən ibarət olub. Bu ilin 6 ayı ərzində 151 nəfər gənc sürücülük məktəbinin tam kursunu bitirib, onlar sürücülük vəsiqələri ilə təmin ediliblər. İdarə və şöbələrin əsas vəzifələrindən biri də gənclərimizin peşəyönümlü ixtisaslara cəlb edilməsindən ibarət olmalıdır.

Səxavət Salmanov çıxışında xidmət əməkdaşlarının vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığın həyata keçirilməsinin zəruriliyindən, qarşıda duran vəzifələrdən danışıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

***İyul ayının 29-da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatında 2017-ci ilin birinci yarısında görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***

## Vətəndaşların hüquqlarının qorunması bu ilin birinci yarısında da uğurla davam etdirilib



Yığıncağı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova giriş sözü ilə açaraq bildirib ki, muxtar respublika vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər 2017-ci ilin birinci yarısında da uğurla davam etdirilib.

Bəhs olunan dövrdə təşkilat fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq işlərin görülməsi, hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi və insan hüquqlarının müdafiəsi aid dövlət və yerli özünüidarə orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurub.

Məruzəçi vurğulayıb ki, 2017-ci ilin ötən dövrü ərzində də müvəkkil hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə, müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirib. Belə ki, 2017-ci ilin birinci yarısında əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində saxlanılıb, bu sahədə tədbirlər həyata keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada tətbiqi vəziyyətinin öyrənilməsi, habelə görülən işlərin müzakirəsi və əlaqələndirilməsi məqsədilə aid qurumların iştirakı ilə müvafiq konfranslar, ümumilikdə, müxtəlif sosial qruplara ünvanlanmış 22 tədbir keçirilib.

Qeyd edilib ki, 2017-ci ilin birinci yarısında müvəkkil preventiv mexanizm yurisdiksiyası şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 19 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 29 başçəkmə həyata keçirilib.

Vurğulanıb ki, ötən ildə də informasiya və ictimaiyyətlə əlaqələrin təşkili istiqamətində işlər davam etdirilib.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova qarşıda duran vəzifələrdən danışıb, sonra məruzə ətrafında çıxışlar olub.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova iclasa yekun vurub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

***Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, 1995-ci ildən ötən dövr ərzində 200-dən çox təhsil müəssisəsi üçün yeni bina tikilib və ya əsaslı şəkildə yenidənqurmadan sonra istifadəyə verilib, təhsil müəssisələrinin maddi-texniki bazaları gücləndirilib, tədrisin yüksək səviyyədə qurulmasına şərait yaradılıb.***



Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə hər il olduğu kimi, bu il də muxtar respublikamızda məktəb binalarının tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi fikir verilib.

2017-ci ilin I yarımili ərzində Naxçıvan şəhərində 3 və 13 nömrəli, Şərur rayonunda Şərur şəhər 2 nömrəli, Çəmənli, Şahbuz rayonunda Kolanı kənd tam orta məktəbləri üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq şagird və müəllimlərimizin istifadəsinə verilib.

Bildirilib ki, hazırda Naxçıvan şəhərində 6 nömrəli, Şərur rayonunda Qarahəsənli, Ərəbyengicə, Ələkli, Babək rayonunda Payız, Gərməçataq, Ordubad rayonunda Üstüpü, Culfa rayonunda Dizə kənd tam orta məktəbləri üçün binaların tikintisi davam etdirilir.

2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama uyğun olaraq 2017-ci ilin birinci yarımili ərzində Heydər Əliyev Muzeyi, Xatirə Muzeyi, Bəhruz Kəngərli Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və görkəmli şəxsiyyətlərin ev-muzeyləri ilə interaktiv əlaqələr yaradılıb. Bununla yanaşı AMEA Naxçıvan Bölməsi ilə muxtar respublika ümumtəhsil məktəbləri arasında interaktiv açıq dərslər, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Regional Bölməsində imtahanda iştirak edən nəzarətçi-müəllimlərlə ilk dəfə olaraq interaktiv seminar keçirilib.

Diqqətə çatdırılıb ki, 2015-ci il 14 mart tarixli "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Sərəncama uyğun olaraq AMEA Naxçıvan Bölməsində və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli müəllimlər tərəfindən 2017-ci ilin birinci yarımili ərzində muxtar respublika ümumtəhsil məktəblərində 1022 saat nümunəvi dərslər tədris olunub.

Vurğulanıb ki, bu il məktəbi bitirən 2758 məzundan 2117-si müxtəlif ali məktəblərə, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 215 məzun isə ali hərbi məktəblərə sənəd təqdim edib. Ümumilikdə, 2332 məzun ali məktəblərə qəbul üçün sənəd verib ki, bu da məktəbi bitirənlərin 78,4 faizini təşkil edir. Bununla yanaşı, bu il muxtar respublikanın ümumtəhsil məktəblərindən ümumi orta təhsil bazasından 1305, tam orta təhsil bazası üzrə isə 141 olmaqla, ümumilikdə, 1446 məzun orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib.

Məruzə ətrafında Ordubad, Şahbuz, Kəngərli Rayon Təhsil şöbələrinin müdirləri Samir Zeynalov, Araz Məmmədov, Emin Məmmədxanlı, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva və Naxçıvan Şəhər Peşə Liseyinin direktoru Sevindik Vəliyev birinci yarımildə görülən işlər barədə çıxış ediblər.

**Fatma BABAYEVA**

* * *

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında qarşıya qoyulmuş vəzifələr və 2017-ci ilin birinci yarısında əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərə dair kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov açaraq bildirib ki, cari ilin ötən dövrü ərzində muxtar respublikada digər sahələrlə yanaşı, əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində də işlər davam etdirilib. Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası diqqət mərkəzində saxlanılıb. Belə ki, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri başa çatdırılıb, burada kompüter-tomoqrafiya aparatı quraşdırılıb. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur rayonunun Ərəbyengicə kəndində həkim ambulatoriyası binasının tikintisi hazırda davam etdirilir.



Kadr hazırlığı və səhiyyə obyektlərinin müasir avadanlıqlarla təchiz olunması sahəsində tədbirlər ardıcıl şəkildə həyata keçirilir.

Vurğulanıb ki, səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Bu sahədə Səhiyyə Nazirliyi müəssisələrində də keçən 6 ay ərzində müəyyən işlər görülüb. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, əhalinin yaşayış standartlarının davamlı yüksəlişi, güzəranının daha da yaxşılaşması, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artırılması və ümumiyyətlə, əhali rifahının davamlı yüksəlişi demoqrafik vəziyyətə öz müsbət təsirini göstərib. Belə ki, muxtar respublikada 2017-ci ilin 6 ayı ərzində 2 min 617 uşaq doğulub, təbii artım 1639 nəfər, doğum göstəricisi 5,8 promilli təşkil edib.

Qeyd olunub ki, muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək üçün ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları yerlərdə müayinə-müalicə işini təşkil edib.

Hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirilib, onlar Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşmə kurslarına göndərilibər. Həkim və orta tibb işçilərinin sertifikasiya işi davam etdirilib.

Bu müddət ərzində müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə fəaliyyət göstərərək sosial layihələr çərçivəsində, ümumilikdə, 375 cərrahi əməliyyat, o cümlədən 7 xəstədə açıq ürək, 41 xəstədə göz və 327 xəstədə digər müxtəlif əməliyyatlar aparılıb.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tibbi statistika və informatika sektorunun aparıcı məsləhətçisi Xavər Babayeva, nazirliyin aparat rəhbəri Nihad Seyidov və başqaları çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələrdən danışıblar.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



***Naxçıvan Şəhər İcra Hakimiyyətində bu ilin birinci yarısında görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.***

İclası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açaraq beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələrin qısa zamanda və yüksək keyfiyyətlə icra olunmasının vacibliyini qeyd edib.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Səyahət İmanov bu ilin birinci yarısının yekunları haqda məruzə edərək bildirib ki, hesabat dövründə Naxçıvan şəhərində abadlıq-bərpa, tikinti-quraşdırma işləri ön plana çəkilərək, əhalinin mənzillərə olan tələbatının ödənilməsi, eləcə də mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış binalarının tikintisinə, habelə mövcud binaların yenidən qurulmasına diqqət yetirilib.

Bəhs edilən dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 377 milyon 138 min 200 manat investisiya qoyulub. Bu da ötən illə müqayisədə 1,4 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artıb. Vətəndaşların vəsaiti hesabına 165 min 484 kvadratmetr ərazidə yeni yaşayış sahələri salınıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşması demoqrafik vəziyyətə də müsbət təsir göstərib, Naxçıvan şəhərində əhalinin sayı artaraq 97 min nəfəri ötüb. Bu ilin yanvar-iyun aylarında 385 milyon 306 min 500 manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Bu dövrdə 432 yeni iş yeri açılıb, onlardan 423-ü daimi iş yeridir. Əvvəlki illərdə olduğu kimi, bu il də strateji əhəmiyyət kəsb edən taxılçılığın inkişafına xüsusi diqqət yetirilib, bu ilin məhsulu üçün 2095 hektar sahədə əkin aparılıb. Yaşıllaşdırma tədbirləri zamanı Naxçıvan şəhərinin ərazisinə 70 ədəd müxtəlif meşə, 481 ədəd müxtəlif meyvə, 10 min 800 ədəd həmişəyaşıl ağac, 400 ədəd müxtəlif gül və dekorativ kollar əkilib, 1,5 hektarlıq meyvə bağlarında bərpa işləri aparılıb.

Bildirilib ki, bu ilin birinci yarısında Naxçıvan şəhəri ərazisinə 41 POS-terminal quraşdırılıb. Naxçıvan şəhərində əhaliyə göstərilən nəqliyyat xidməti sahəsində də bir sıra işlər görülüb. Əhaliyə 64 avtobus, 20 mikroavtobus, 221 ədəd taksi xidmət göstərib. Cari ilin müvafiq dövründə Naxçıvan şəhərində nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2 min 810,9 ton yük, 23865,9 min nəfər sərnişin daşınıb. Yük daşınması 2,1, sərnişin daşınması 3,1 faiz artıb. Bu ilin 6 ayı ərzində işaxtaran kimi qeydə alınan 139 nəfər işlə təmin edilib, bunlardan 101 nəfəri qadın, 3 nəfəri fiziki imkanları məhdud şəxs olub. 46 nəfər ictimai işə cəlb edilib, 4 nəfər kvota (norma) yerlərinə göndərilib, 74 nəfərə peşə hazırlığı kursları keçməsi üçün şərait yaradılıb. Bunlardan da 28 nəfəri işlə təmin olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

**Səbuhi HÜSEYNOV**

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində yarımilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclasını xidmətin rəisi Namiq Paşayev açaraq məruzə ilə çıxış edib.

Bildirilib ki, xidmətin balansında ümumi gücü 137 meqavat olan 2 istilik, gücü 70,4 meqavat olan 5 su, 20 meqavatlıq Günəş elektrik stansiyası vardır.

Qeyd edilib ki, muxtar respublikanın elektrik enerjisi işlədicilərinin tələbatı yay günlərində 80-85 meqavat, suvarma mövsümü olmayan dövrlərdə isə 45-50 meqavat təşkil edir. Cari ilin ötən dövrü ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 222 milyon 70 min 155 kilovat-saat elektrik enerjisi daxil olub, bunun 18 milyon 831 min kilovat-saatı İran İslam Respublikasından alınıb. Altı ay ərzində İran İslam Respublikasına 25 milyon 797 min kilovat-saat elektrik enerjisi verilib. Alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalı ümumi istehsalın 62,2 faizini təşkil edib ki, bu da dünyada nadir göstərici hesab edilir.

Vurğulanıb ki, xidmət tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafikə uyğun olaraq əsaslı və cari təmir işləri aparılır, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, transformator yarımstansiyalarının qoyulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Bu ilin altı ayı ərzində muxtar respublikanın şəhər və kəndlərində 7 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb,



92 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyası təmir edilib, 19,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib, 5 kilometr uzunluğunda hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilib.

Hesabat dövründə Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında yerləşən transformator yarımstansiyalarında 41 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb.

Muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Son altı ay ərzində 2 min 810 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 17 min 556-ya çatdırılıb.

Qeyd olunub ki, yüksəkixtisaslı kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə Naxçıvan Dövlət Universitetində təhsil almış mühəndis-elektriklərdən keçən il 4 nəfəri, bu ilin ötən dövründə isə 3 nəfəri ixtisasına uyğun işlə təmin edilib.

Tədbirdə Yüksək Gərginlikli Elektrik Şəbəkəsinin direktoru Yunis Əliyev, Araz SES-in direktoru Nadir İsmayıllı, Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyev, Ordubad Rayon Elektrik Şəbəkəsinin direktoru Ramazan Rzayev çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər haqqında məlumat veriblər.

İclasa Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev yekun vurub.

**Nail ƏSGƏROV**

## Gürcüstanın Acarıstan Muxtar Respublikasından olan uşaqlar Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunurlar



Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında səhiyyə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq iyulun 28-də tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı aztəminatlı ailələrdən olan 19 uşaq və onları müşayiət edən 9 valideyn Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmək üçün Naxçıvana gəliblər.

İyulun 31-də "Duzdağ" otelində acarıstanlı uşaqlar və valideynləri ilə görüş keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından qonaqları salamlayaraq deyib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı ikitərəfli əlaqələr uğurla inkişaf edir. 2012-ci ildən başlayaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər əlaqələri yeni inkişaf mərhələsinə yüksəldib, müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlığın əsası qoyulub. Hər il Acarıstan Muxtar Respublikasının aztəminatlı ailələrindən olan və tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən uşaqların Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsinin təşkili də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bu il də bu kateqoriyadan olan uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicəsi üçün hər cür şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva və həkim Nazim İbrahimli çıxış edərək qonaqlara Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumat veriblər. Qeyd olunub ki, son illər əsaslı şəkildə yenidən qurulan mərkəzdəki duz şaxtalarında bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkənlər müalicə olunurlar. Xəstələrin effektli müalicəsi üçün mərkəzdə hərtərəfli şərait vardır.

Qrup rəhbəri Marika Xalvaşi acarıstanlı uşaqların müalicəsi üçün yaradılan şəraitə və göstərilən qonaqpərvərliyə görə valideynlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirdi.

Sonra Acarıstan Muxtar Respublikasından gəlmiş qonaqlara hədiyyə verildi.

**"Şərq qapısı"**

*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

## Ana dili ən ali milli dəyərimizdir




***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.***

Hər bir xalqı, milləti başqalarından fərqləndirən mühüm amillərdən biri və ən başlıcası onun dilidir. Bu baxımdan Azərbaycan dili də özünəməxsusluğu və zənginliyi ilə başqa dillərdən seçilir. Doğma ana dilimiz daş kitabələrdən – Qobustandan, Gəmiqayadan üzü bu yana çətin və şərəfli bir yol keçərək bugünkü səviyyəyə gəlib çatmışdır. Dədə Qorqud qopuzundan, Koroğlu sazından süzülüb gələn dilimiz həzin ana laylası ilə ruhumuza hopmuşdur. Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Məmməd Araz və başqa görkəmli söz ustaları bu dildə ölməz sənət nümunələri yaratmış, öz yaradıcılıqları ilə Azərbaycan dilinin böyük ifadə imkanlarını üzə çıxarmışlar.

Dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu bilavasitə dövlətçiliklə bağlı olduğu üçün dil dövlətçiliyin əsas aparıcı atributlarından biri hesab olunur. Dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə qaldırılması, qorunması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. ***"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"***, – deyən ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan dilinin hərtərəfli inkişafına, onun rəsmi dövlət dili statusuna malik olmasına, beynəlxalq münasibətlər sisteminə yol tapmasına, zənginləşməsinə və nüfuz qazanmasına böyük qayğı göstərmişdir. Dahi rəhbər Azərbaycan dilini milli varlığın əsası kimi həmişə diqqət mərkəzində saxlamış, 1978-ci ildə Azərbaycan dilini Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur. Həmin dövrdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur.

Dahi rəhbər siyasi hakimiyyətə ikinci qayıdışından sonra da milli dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində mühüm addımlar atıb. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapmışdır. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı, eləcə də 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Belə ki, ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə ölkəmizdə kiril əlifbasından istifadəyə son qoyulmuş, latın qrafikası tətbiq olunmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi doğma dilimizə və əlifbamıza dərin ehtiramın ifadəsidir. Ölkə başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Dövlət başçısının sonrakı sərəncamları əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət Proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyətinin, terminologiyanın inkişafına, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir. Naxçıvan şəhərində "Ana dili" abidəsi ucaldılmışdır. Son illər muxtar respublikada dərc olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan folkloru antologiyası", 3 cildlik "Naxçıvan tarixi" kitabı, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir.

Bu gün hamımızdan Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur. Çünki ana dilini sevmədən vətənpərvər olmaq mümkün deyil. Ulu öndər Heydər Əliyevin də dediyi kimi: ***"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır, bunlarsız isə vətənpərvərlik formulu yoxdur".***

**"Şərq qapısı"**

*Muzeylərin tariximizin, mədəniyyətimizin təbliğ olunmasındakı, insanların maarifləndirilməsindəki rolunu yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib:* ***"Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir".***

## Muzey ziyarətləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

İyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində olublar. Məlumat verilib ki, muzey 1924-cü ildə Tarix-Etnoqrafiya Muzeyi kimi fəaliyyətə başlayıb, ötən müddət ərzində özünəməxsus inkişaf yolu keçib. Muzeyin ekspozisiyası qədim, orta əsrlər, müasir dövr və yeni dövrü əhatə edir. Bir neçə şöbədən ibarət olan muzeydə müxtəlif çeşidli əmək alətləri, Paleolit və Neolit dövrlərinin əşyaları, dən daşları, obsidiandan lövhələr, daş çəkiclər, sümük bizlər, muxtar respublika ərazisində aşkar olunan mis və gümüş pullar nümayiş etdirilir. Eyni zamanda muzeydə orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Möminə xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, dekorativ-tətbiqi sənətə aid xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq sənəti nümunələri, xalq ustalarının müxtəlif əl işləri sərgilənir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Dövlət Bayrağı Muzeyində, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Heydər Əliyev Muzeyində, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları Ədəbiyyat Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Komplekslərində, Nəqliyyat Nazirliyində çalışanlar "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksində və Gülüstan türbəsində, Vergilər Nazirliyinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İqtisadiyyat Nazirliyinin işçiləri Naxçıvan Dövlət Xalça Muzeyində, Maliyyə Nazirliyinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi Bəhruz Kəngərli Muzeyində, Dövlət Gömrük Komitəsinin əməkdaşları Xatirə Muzeyində, Fövqəladə Hallar Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində, Ədliyyə Nazirliyi və Penitensiar Xidmətin aparatı Cəlil Məmmədquluzadənin ev-muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Naxçıvan Dövlət Rəsm Qalereyasında olublar.

Şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayon mərkəzlərində fəaliyyət göstərən Tarix-Diyarşünaslıq və digər muzeyləri ziyarət ediblər.

**Muxtar MƏMMƏDOV**

## Saat Meydanında növbəti şənbə konserti olub



Ötən şənbə Naxçıvan şəhərinin Saat Meydanında növbəti konsert təşkil olunub. Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri maraqlı konsert proqramı ilə çıxış edib.

Əvvəlcə görkəmli bəstəkar Tofiq Quliyevin "Vals"ı səslənib. Bir-birinin ardınca səslənən görkəmli rus bəstəkarları G.V.Sviridov və P.İ.Çaykovskinin də bu janrda yazılmış musiqi əsərləri tamaşaçılarda xoş ovqat yaradıb.

Konsertdə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlinin ifa etdiyi bəstəkar Rəşid Məmmədovun "Naxçıvan", Tofiq Quliyevin "Sənə də qalmaz", Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərovun, Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın ifa etdikləri Tofiq Quliyevin "Bakı nəğməsi", Müslüm Maqomayevin "Azərbaycan", Vasif Adıgözəlovun "Naznaz" mahnıları alqışlarla qarşılanıb.

Kamera orkestrinin solistləri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Yaşar Qurbanov, Elçin Nağıyev, gənc solistlər Rahim Əsgərzadə, İlkin Abdullayevin ifa etdikləri görkəmli bəstəkarlarımız Rauf Hacıyevin "Sevgilim", Emin Sabitoğlunun "Dədə Qorqud" kinofilminə yazdığı mahnı, Fikrət Əmirovun "Gülərəm gülsən", "Baharımsan", Səid Rüstəmovun "Haralısan" lirik nəğmələri və xalq mahnıları kollektivin repertuar zənginliyini göstərirdi.

Konsertdə tanınmış müğənnilərimizin ifasında Üzeyir Hacıbəyovun operettalarından, Azərbaycan filmlərindən mahnıların ifası maraqla qarşılanıb.

İki saata yaxın davam edən konsert Naxçıvan şəhər sakinlərində və qonaqlarda xoş ovqat yaradıb .

**Əli RZAYEV**

# Muxtar respublikada idmana göstərilən böyük diqqətin nəticəsində qazanılan uğurların sayı artmaqdadır

***Müstəqil Azərbaycanda idman cəmiyyət həyatının ayrılmaz tərkib hissələrindən biridir. Bu gün respublikamız idman ölkəsi kimi tanınıb, burada keçirilən çoxsaylı beynəlxalq yarışlar onu dünyanın idman mərkəzlərindən birinə çevirib. Sözsüz ki, bütün bunlar ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu idman siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin nəticəsidir.***

Naxçıvan Muxtar Respublikasında da idmana göstərilən diqqət və qayğı bu sahənin inkişafına böyük təkan verir, minlərlə yeniyetmə və gəncin sağlam ruhda tərbiyə olunmasına şərait yaradır. Bu gün muxtar respublikamızın şəhər və rayonlarında müasir standartlara cavab verən, hər cür şəraiti olan idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması, idmanda kütləviliyin təmin olunması, nüfuzlu idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın mötəbər yarışlarda medallar qazanması muxtar respublikamızı idman məkanı kimi tanıdıb.





### Uğurun başlanğıcı: yerli turnirlər

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı qabaqcıl istiqamət kimi müəyyənləşdirilib. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə bu məqamlar xüsusilə vurğulanıb. Bu il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilən müşavirədə də konkret tapşırıqlar verilib.







Cari ilin ötən dövrü ərzində muxtar respublikada keçirilən bir sıra yarışlar, turnirlər maraqla qarşılanıb. Bu müddət ərzində Naxçıvanda idman mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, xarici mütəxəssislərlə təcrübə mübadiləsinin aparılması məqsədilə idman növləri üzrə seminarlar təşkil olunub. Bundan başqa, milli güləş, karate, boks, kikboksinq, şahmat kimi idman növlərinin inkişaf etdirilməsi sahəsində də böyük işlər görülüb.

Ötən illərdə olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası ölkənin idman mərkəzlərindən birinə çevrilib, regionumuzda bir sıra beynəlxalq turnirlər təşkil edilib. Həmin yarışlar yüksək səviyyədə baş tutub. Belə ki, mayın 1-2-də Şərur Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə peşəkarlararası reytinq və kəmər döyüşləri təşkil olunub və 14 idmançının iştirak etdiyi yarışda 67 kiloqram çəki dərəcəsində Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının yetirməsi Ruslan Musayev qalib adını qazanıb. 11-14 iyun tarixlərdə isə boks üzrə yeniyetmələr arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Heydər Əliyev kuboku-2017" Beynəlxalq turnirində qazanılan uğurlar muxtar respublikanın idman sahəsində nə qədər inkişaf etdiyini bir daha göstərdi. Bu müddət ərzində Naxçıvan Muxtar Respublika Stadionunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" turniri, eyni zamanda bu arenada Azərbaycan kubokunun final oyununun keçirilməsi, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının final mərhələsinin təşkili idman ictimaiyyəti tərəfindən alqışlarla qarşılandı.

Naxçıvan Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalında, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş pauerliftinq və bench-press idman növü üzrə beynəlxalq turnirdə isə dünyanın 100-dən çox idmançısı mübarizə apardı.

Muxtar respublikamızda idman sahəsində əldə olunmuş nailiyyətlər, idmançılarımızın ən mötəbər beynəlxalq idman yarışlarında qazandıqları uğurlar Gənclər və İdman Nazirliyi, yerli idman federasiyalarının sıx əməkdaşlığı sayəsində mümkün olmuşdur.

### Naxçıvanlı idmançıların yeni adı: arzuolunmaz rəqiblər

Keçirilən yerli idman yarışları, həmçinin muxtar respublikada təşkil olunan ölkədaxili və beynəlxalq turnirlər idmançılarımızın da təcrübə qazanması baxımından böyük önəm kəsb edir. Qeyd etdiyim kimi, muxtar respublika idman məktəblərinin yetirmələri bu ilin ötən aylarında istər ölkədaxili, istərsə də beynəlxalq arenalarda uğura imza atmağa müvəffəq olublar. Bu ilin ilk ayında Bakı İdman Sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş uşaqlar, yeniyetmələr və gənclər arasında karate-do üzrə klublararası beynəlxalq turnirdə, Salyan rayonunda şahmat üzrə 8, 10, 12, 14 və 16 yaşadək oğlan və qızlar arasında Azərbaycan birinciliyinin seçmə yarışlarında, Bakı şəhərində keçirilən boks üzrə Azərbaycan çempionatında, ümumilikdə, qazanılan 14 medal uğurlarımızın başlanğıcı kimi tarixə düşdü. Növbəti iki ayda isə kikboksinq üzrə XXIII Azərbaycan çempionatında, cüdo, qız və oğlan atletləri arasında yüngül atletikanın qaçış növü, ağırlıqqaldırma, pauerliftinq, sərbəst güləş üzrə Azərbaycan birinciliklərində, MMA (Qarışıq Döyüş Növləri) üzrə Sumqayıt şəhər açıq birinciliyində qazanılan uğurlar muxtar respublikada idmanın inkişafının göstəricisidir.

Ölkədaxili turnirlərdə əldə olunan uğurlar bununla bitmir. Belə ki, idmançılarımız aprel ayında Hövsan Olimpiya-İdman Kompleksində Qarışıq Döyüş Növləri üzrə MMA Azərbaycan çempionatında 3, Sumqayıt Olimpiya-İdman Kompleksində MMA kempo üzrə Azərbaycan çempionatında 4, Balakən rayonunda sərbəst güləş üzrə yeniyetmələr arasında XI Respublika Oyunlarında 2, may ayında isə Xırdalan Olimpiya-İdman Kompleksində Qarışıq Döyüş Növləri üzrə Azərbaycan turnirində 4, Bakı şəhərində MMA üzrə Azərbaycan çempionatında 10 müxtəlif əyarlı medal əldə ediblər.

Dünya və Avropa, eləcə də beynəlxalq turnirlərdə idmançılarımız artıq arzuolunmaz rəqiblər statusunu alıblar. 2017-ci ilin ilk 7 ayı ərzində muxtar respublikanı təmsil edən idmançılar böyük nailiyyətlər əldə ediblər. Bu yarışlar çərçivəsində İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətində keçirilən boks üzrə beynəlxalq turnirdə dəri əlcək sahiblərimiz 5 medal qazanıb, bu ölkənin Urmiya şəhərində sərbəst güləş üzrə beynəlxalq turnirdə isə güləş komandamız qalibiyyətə imza atıb. Naxçıvan boks məktəbinin yetirməsi Tayfur və Sərxan Əliyevlər mart ayında Bakı şəhərində keçirilən IX "Böyük İpək Yolu" beynəlxalq turnirində fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar. Tayfur Əliyev həmçinin Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında bürünc medalı da əldə edib.

Aprel ayında şahmatçılarımız Türkiyənin Ordu şəhərində keçirilən III Ordu beynəlxalq şahmat turnirində, kikboksçumuz Ruslan Musayev Macarıstanın Budapeşt şəhərində kikboksinq üzrə Dünya çempionatında, karateçilərimiz isə Gürcüstanın Tbilisi şəhərində karate üzrə beynəlxalq turnirdə uğura imza ataraq, muxtar respublika idmanını layiqincə təmsil edib, mükafatçılar sırasına düşüblər.

Əldə olunan uğurlar bir daha göstərir ki, Naxçıvan idmanı yüksək səviyyədə inkişaf edir, muxtar respublikada olimpiya-idman növləri ilə yanaşı, qeyri-olimpiya-idman növlərinə də daim diqqət və qayğı göstərilir. Bu gün muxtar respublikanın beynəlxalq idman qurumları ilə əlaqələri də yüksək səviyyədədir. Bunun nəticəsidir ki, Naxçıvanımızda artıq beynəlxalq yarışların, dünya və Avropa çempionatlarının keçirilməsi bir ənənəyə çevrilib. Naxçıvandakı mövcud idman infrastrukturu, idmançılara göstərilən diqqət və qayğı, insanlarımızın qonaqpərvərliyi burada ən mötəbər yarışlara ev sahibliyi etməyə şərait yaradır.

### Qadınların idmana cəlbi istiqamətində ardıcıl işlər görülür

Cəmiyyətdə, ümumilikdə, belə bir fikir var ki, qadınlar, əsasən, sağlamlıqlarını qorumaq naminə idman edirlər. Çünki idman qadınları nəinki fiziki, eləcə də mənəvi cəhətdən gücləndirir. Araşdırmalar göstərir ki, qadın orqanizmi idmana kişilərdən daha tez adaptasiya olur.

Naxçıvan Muxtar Respublikasında qadınların idmana cəlbi yönündə mühüm addımlar atılıb. İlk olaraq Gənclər və İdman Nazirliyinin nəzdində bədii gimnastika bölməsi fəaliyyətə başlayıb və qısa vaxt ərzində bura yüzlərlə azyaşlı müraciət edib. Çünki bədii gimnastika həm sağlamlığı qoruyur, həm də fiziki inkişafı sürətləndirir. Bu idman növü ilə yanaşı, cari ildə qızlar üzrə həndbol bölmələri də fəaliyyətə başlayıb. Hazırda muxtar respublikanın şəhər və rayonlarında həndbol bölmələrində yüzlərlə qız bu növlə məşğul olur.

Ümumiyyətlə, son illərdə Naxçıvanda qadınların idmana marağı xeyli artıb. Bunun əsas səbəbi onlar üçün yaradılan şərait və burada peşəkar məşqçi-müəllimlərin çalışmalarıdır. Bədii gimnastika və həndbolla yanaşı, stolüstü tennis, karate-do, taekvando, basketbol, voleybol, yüngül atletika, şahmat, Şərur rayonunda trenajor və üzgüçülük idman növləri üzrə də qız bölmələri fəaliyyət göstərir.

### Turizmin inkişafına töhfə

Muxtar respublikamızın turizmdə rəqabət imkanları hədsizdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Son illər ərzində Naxçıvanda bu istiqamətin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi də turizmin inkişafına geniş zəmin yaradır. Həmin tədbirlər nəticəsində muxtar respublikada turizm sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. İdmanın ən sıx əlaqədə olduğu sektor turizm sektorudur. Bu ilin ötən dövrü ərzində muxtar respublikada keçirilən beynəlxalq yarışlar yüzlərlə əcnəbi vətəndaşın Naxçıvana təşrif buyurmasına səbəb olub.

*Bu gün muxtar respublikada keçirilən beynəlxalq səviyyəli turnirlər həm də regionda turizmin inkişafına öz töhfəsini verir. Yaradılan şəraitdən düzgün istifadə etmək, idmanımızın yüksəlişinin davamlılığını təmin etmək isə hamımızın borcudur.*

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 31 iyul 2017-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4 144 | 4 144 | 13 171 | 31,8 |
| 2. | Babək rayonu | 10 420 | 10 420 | 32 820 | 31,5 |
| 3. | Ordubad rayonu | 1 671 | 1 671 | 4 706 | 28,2 |
| 4. | Culfa rayonu | 6 048 | 5 618 | 14 608 | 26,0 |
| 5. | Kəngərli rayonu | 4 364 | 4 364 | 12 134 | 27,8 |
| 6. | Şahbuz rayonu | 1 591 | 941 | 2 672 | 28,4 |
| 7. | Sədərək rayonu | 2 440 | 2 440 | 7 859 | 32,2 |
| 8. | Naxçıvan şəhəri | 954 | 954 | 2 604 | 27,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31 632** | **30 552** | **90 574** | **29,6** |


**İtmişdir**

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 4, mənzil 57-də qeydiyyatda olan Babayeva Səmayə Qurban qızının adına olan 6064 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Yaşar Həbib oğlunun adına AA-003508 nömrəli torpaq sahəsinin plan ölçüsü və MH-0013895 nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 615